# AZƏRBAYCAN - MƏLUMAT BÜLLETENİ

## Azərbaycan

Sentyabr 2022-ci il

**BMT QAK,** hökumət və vətəndaş cəmiyyəti ilə əməkdaşlıq edərək, aidiyyətində olan şəxslər üçün **münasib himayə məkanının mövcudluğuna əmin olmağa** və dayanıqlı həll perspektivlərinin artırılmasına çalışır.

**BMT QAK qaçqınların** ölkənin sosial, iqtisadi və mədəni həyatında tam və effektiv iştirakı üçün əlavə tədbirlərlə onların **inteqrasiyası və təminatı sahəsində səylərini gücləndirib.**

BMT QAK həmçinin **"Bir ad altında çatdırma"** təşəbbüsü çərçivəsində inkişaf, humanitar yardım və ətraf mühit sahələrində digər qurumlarla sıx əməkdaşlıq edir.

### AİDİYYƏTDƏ OLAN ƏHALİ – *30 iyun 2022-ci il tarixdə **

| | |
|---|---|
| Qaçqınlar | **6,466** |
| Sığınacaq axtaranlar | **121** |
| Məcburi köçkünlər | **654,839** |
| Vətəndaşlığı olmayanlar ** | **3,585** |

***Vətəndaşsızlıq riski altında olan qeydiyyata alınmamış şəxslər də daxildir – əhalinin 2009-cu il siyahıyaalınması*

### ÜÇ ƏSAS MƏNŞƏ ÖLKƏSİ *




*Mənbə: BMT QAK-ın 2022-ci il yarımillik statistik hesabatı

### UKRAYNA QAÇQINLARI İLƏ BAĞLI TƏDBİRLƏR

**30 sentyabr tarixə olan məlumata əsasən**, hal-hazırda Azərbaycanda Ukraynadan olan **4218** qaçqın və qaçqına bənzər vəziyyətdə olan şəxs var.

BMT QAK yerli hakimiyyət orqanları ilə əməkdaşlıq edərək, Ukrayna vətəndaşlarının əsasən hüquqi yardım və məsləhət xidmətləri, habelə müvəqqəti və daimi yaşayış icazələrinin alınması üçün dövlət rüsumlarının qarşılanması kimi mövcud proqramlara daxil edilməsi sahəsində tədbirlər görür.

BMT QAK, Ukrayna səfirliyi və könüllülərlə əməkdaşlıq sayəsində yeni gələn ailələrə **quru ərzaqdan ibarət 200 bağlama və 100 gigiyenik dəst** çatdırıb.

**Həssas qruplara dəstək:** həssas vəziyyətdə olan 31 ukraynalıya nağd pul verilib, həmçinin 3 nəfərə hüquqi yardım göstərilib.

**Koordinasiya:** BMT QAK-ın təşəbbüs və dəstəyi ilə iyun ayında Dövlət Miqrasiya Xidməti (DMX) və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi (İTS) arasında aparılan danışıqlardan sonra DMX qaçqına bənzər vəziyyətdə olan ukraynalıların səhiyyə xidmətlərinə çıxışını asanlaşdırmaq üçün onlar haqqında məlumatları İTS ilə paylaşmağa başlayıb.

### ƏSAS MƏQAMLAR

#### 60-dan artıq qaçqın gəncin

ali təhsil almasına "DAFI" (Albert Eynşteyn Alman Akademik Qaçqın Təşəbbüsü) Təqaüd Proqramı və ya illik təhsil haqqlarının BMT QAK tərəfindən ödənilməsi ilə dəstək göstərilib.

#### 1,160 məcburi köçkün

BMT QAK-ın hüquqi məsləhət və hüquqi yardım proqramı çərçivəsində ödənişsiz hüquqi yardımdan yararlanıb.

#### 14 Ukrayna vətəndaşına

90 günlük vizasız qalma müddəti bitdikdən sonra müvəqqəti yaşama icazəsi almaq və Azərbaycanda qalmalarını leqallaşdırmaq üçün BMT QAK-dan maddi dəstək göstərilib.

#### Vətəndaşsızlıq

2022-ci ilin aprel-sentyabr ayları ərzində 231 nəfər Azərbaycan vətəndaşlığı alıb və qeydiyyatda olan vətəndaşlığı olmayan şəxslərin sayı 391-dən 160-a enib.

### GƏNC QAÇQINLARIN İŞLƏ TƏMİN EDİLMƏSİ



Əfqanıstandan olan gənc qaçqın Nilab Zeynəddin Bakı Tibb Kollecini müvəffəqiyyətlə bitirdikdən sonra Leyla Tibb Mərkəzində tibb bacısı kimi işə başlayıb. Nilabın illik təhsil haqları, nəqliyyat və ləvazimatların alınması ilə bağlı xərcləri BMT QAK tərəfindən ödənilib. 21 sentyabr 2022-ci il tarixdə dərc edilmiş press-relizə buradan daxil ola bilərsiz.

## Başlıca Prioritetlər

- **Himayə:** BMT QAK beynəlxalq standartlara uyğun adekvat himayə məkanının və insan hüquqlarının təmin edilməsi üçün hakimiyyət orqanları ilə və maraqlı tərəflərlə təşviqat işləri aparır.
- **Əraziyə daxil olma imkanı:** BMT QAK əraziyə daxil olma şərtlərinə əməl edilməsinə və beynəlxalq hüquq və standartlara uyğun olaraq geri qaytarılmama prinsipinə riayət edilməsinə nəzarət edir.
- **Sığınacaq prosedurları:** BMT QAK sığınacaq prosedurlarına çıxışın monitorinqini aparır və beynəlxalq standartların gözlənilməsi üçün tövsiyələr vermək və müntəzəm təlimlər keçirməklə sığınacaq prosedurlarının keyfiyyətinin artırılmasına çalışır.
- **Həll yolları:** BMT QAK sığınacaq axtaranların və qaçqınların Azərbaycan cəmiyyətində öz təminatını, inklüzivliyini və inteqrasiyasını, habelə didərginlərin otuz ildən sonra təhlükəsiz, ləyaqətli və könüllü şəkildə yurdlarına qayıtmasını təmin etmək üçün Hökumətlə əməkdaşlıq edir.Qurum Hökumətə mənzil, torpaq və əmlak sahələri daxil müxtəlif mövzularda məsləhət və tövsiyələr verir, qabaqcıl təcrübələri əldə edib bölüşür.
- **İnteqrasiya: Hüquqi statusun olmamasına baxmayaraq,** qaçqın və sığınacaq axtaran şəxslərə əmək bazarına, ödənişsiz ibtidai və orta təhsilə və səhiyyə xidmətlərinə qanuni çıxış imkanı verilib. Bəzi qaçqın tələbələr "DAFI" Təqaüd Proqramı, və digər maliyyə mənbələri tərəfindən təhsil haqlarının qarşılanması ilə dəstəklənir.
- **Təşviqat:** BMT QAK  qaçqın, məcburi köçkün və vətəndaşlığı olmayan şəxslər üçün beynəlxalq standartlara uyğun himayə və həll yollarının təmin edilməsi üçün Hökumət və vətəndaş cəmiyyəti ilə təşviqat işləri aparır. BMT QAK-ın təşviqat işləri əsas mənşə ölkələrindən olan sığınacaq axtaran şəxslərin tanınma faizinin yüksəldilməsini, qaçqınlara hüquqi statusun verilməsini və qanunvericiliklə əlavə himayə formalarının qəbul edilməsini əhatə edir.
- **Qeyri-ərzaq yardımı:** BMT QAK, Ukraynalılar və münaqişədən ziyan çəkmiş əhali daxil olmaqla, həssas durumda olan didərginlərə zəruri yardım əşyaları və ya mümkün olduqda nağd pul paylamaqla dəstək göstərir.

## Tərəfdaşlarla iş

- BMT QAK qaçqın, sığınacaq axtaran, məcburi köçkün, vətəndaşlığı olmayan və münaqişədən zərər çəkənlər üçün himayə və yardımı əlaqələndirmək üçün dövlət və mülki cəmiyyət subyektləri ilə işləyir.
- **İctimaiyyətlə əlaqələr:** BMT QAK didərginlik və vətəndaşsızlıq durumunun ağırlığı, miqyası və qurumun mandatının vacibliyi barədə məlumatlılığı təmin etmək üçün daha geniş auditoriya qurmağa çalışır. Bu yanaşma BMT-nin "2030-cu ilədək dayanıqlı inkişaf gündəliyi"ndə və "Qaçqınlar üzrə qlobal saziş"də göstərilən subyektlərin humanitar və inkişaf səyləri ilə uzlaşdırılır.

## Məcburi köçkünlər

- Rusiya, Azərbaycan və Ermənistan arasında 9 noyabr 2020-ci il tarixli bəyanata əsasən, qayıdışla bağlı nəzarət funksiyası BMT QAK-a həvalə olunub. BMT QAK ilk növbədə qayıdışın könüllü olmasını və prosesin təhlükəsiz aparılmasını təmin etmək üçün təşviqat işləri daxil olmaqla təhlil, hüquq və qaydalar barədə məsləhətlər verilməsi işinə cəlb olunub.

## Vətəndaşsızlıq

- BMT QAK qeydiyyata alınmış vətəndaşlığı olmayan şəxslərə vətəndaşlıq verilməsi üzrə Hökumətin Vətəndaşsızlıq üzrə Yüksək Səviyyəli Seqmentdə verdiyi vədi yerinə yetirməsinə kömək edir.

## BMT QAK Azərbaycanda

**Heyət:**
Milli heyət – 20 nəfər
Xaricilər – 4 nəfər
Köməkçi heyət – 3 nəfər

**İdarələr:**
Bakı şəhərində Nümayəndəlik
Bakı şəhərində Qəbul Mərkəzi

## Maliyyə məlumatı (sentyabr 2022-ci il)

**Maliyyə ehtiyacları**
7.8 milyon $



**Boşluq**
**63%**
**4.9 milyon $**

**Təmin olunub**
**37%**
**2.9 milyon $**

BMT QAK şərtsiz, qismən şərtli və şərtli ayırmalara görə ən öndə olan hökumət donorlarlarına göstərdikləri dəstəyə görə təşəkkürünü bildirir.

**Almaniya | Amerika Birləşmiş Ştatları | Avstraliya | Avstriya | Belçika | Birləşmiş Krallıq | Danimarka | Fransa | Irlandiya | İspaniya | İsveç | İsveçrə | Italiya | Kanada | Niderland | Norveç | Yaponiya**

**BMT QAK, həmçinin, səxavətli ianələrinə görə özəl sektora və ayrı-ayrı şəxslərə təşəkkür edir.**